# “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC-nin 2026-2029-CU İLLƏR ÜZRƏ İNKİŞAF SİYASƏTİ

**2026-cı il**

## 1. Ümumi müddəalar

1.1. "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra – Cəmiyyət) İnkişaf siyasəti (bundan sonra - Siyasət) Cəmiyyətin strateji dəyərlərinin yüksəldilməsi, insan resursları və maliyyə idarəçiliyi sistemlərinin inkişafı üzrə əsas prioritetlərini və istiqamətlərini müəyyən etməklə bazar mövqeyinin gücləndirilməsini təmin edən əsas yanaşma və prinsipləri əhatə edir.

1.2. Siyasət Azərbaycan Respublikasının Qanunvericiliyi, o cümlədən "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun, Azərbaycan Respublikası Mərkəzi Bankının 08 fevral 2024-cü il tarixli qərarı ilə təsdiq edilmiş "İnvestisiya şirkətlərində korporativ idarəetmə Standartlar"ı və Azərbaycan Respublikası Mərkəzi Bankının digər normativ xarakterli aktları, həmçinin Cəmiyyətin 2025/2029-cu illər üzrə Strateji Planı əsasında hazırlanmışdır.

1.3. Siyasət Cəmiyyətin strateji baxışını, missiyasını və prioritet inkişaf hədəflərini sistemli şəkildə müəyyən edərək, idarəetmə qərarlarının qəbulunda əsas istiqamətləndirici çərçivə rolunu oynayır.

## 2. Cəmiyyətin inkişaf siyasəti üzrə əsas strateji hədəfləri

Cəmiyyətin strateji dəyərlərinin yüksəldilməsi üzrə əsas strateji hədəfləri aşağıdakılardır:

**2.1. Xidmət keyfiyyətinin və məhsul çeşidinin inkişaf etdirilməsi:**

2.1.1. Müştərilərin ehtiyaclarına uyğun yeni investisiya məhsul və xidmətlərinin hazırlanması;
2.1.2. Portfel idarəçiliyi və investisiya məsləhəti xidmətlərinin genişləndirilməsi;
2.1.3. Müxtəlif müştəri seqmentləri üçün fərdiləşdirilmiş investisiya həllərinin tətbiqi;
2.1.4. Analitik dəstək xidmətlərinin və bazar araşdırmalarının inkişaf etdirilməsi;
2.1.5. Müştərilərin investisiya qərarlarının dəstəklənməsi məqsədilə mütəmadi bazar icmallarının və tematik hesabatların hazırlanması.

**2.2. Müştəri məmnuniyyətinin artırılması:**

2.2.1. Müştəri yönümlü xidmət modelinin inkişaf etdirilməsi;
2.2.2. Müştəri seqmentləri üzrə fərdiləşdirilmiş xidmət yanaşmalarının tətbiqi;
2.2.3. Xidmət keyfiyyətinin və operativliyin artırılması;
2.2.4. Müştəri loyallığının və uzunmüddətli əməkdaşlığın təşviq edilməsi;
2.2.5. Premium xidmət standartlarının formalaşdırılması və tətbiqi.

**2.3. Müştəri təcrübəsinin və xidmət proseslərinin təkmilləşdirilməsi:**

2.3.1. Net Promoter Score (NPS) və digər göstəricilər əsasında müştəri məmnuniyyətinin ölçülməsi və qiymətləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi;
2.3.2. Müştəri müraciətləri və şikayətlərinin operativ həlli proseslərinin təkmilləşdirilməsi;
2.3.3. 24/7 dəstək xidmətlərinin və rəqəmsal kommunikasiya kanallarının inkişaf etdirilməsi;
2.3.4. Avtomatlaşdırılmış həllər və rəqəmsal texnologiyalar vasitəsilə xidmət səmərəliliyinin artırılması.

**2.4. Brend dəyərinin və bazar nüfuzunun gücləndirilməsi:**

2.4.1. İNVEST-AZ brendinin yerli və regional səviyyədə tanınmasının artırılması;
2.4.2. Rəqəmsal marketinq və kommunikasiya fəaliyyətlərinin genişləndirilməsi;
2.4.3. Gənc investorların cəlb edilməsinə yönəlmiş təşəbbüslərin həyata keçirilməsi;
2.4.4. Maliyyə savadlılığının artırılmasına yönəlmiş tədbirlərin təşkili;
2.4.5. Cəmiyyətin ekspert mövqeyinin və korporativ nüfuzunun gücləndirilməsi.

**2.5. Strateji tərəfdaşlıqların inkişaf etdirilməsi və yeni bazarlara çıxış:**

2.5.1. Yerli və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanlarının genişləndirilməsi;
2.5.2. Banklar və digər maliyyə institutları ilə birgə layihələrin həyata keçirilməsi;
2.5.3. Beynəlxalq brokerlər və likvidlik təminatçıları ilə əməkdaşlığın inkişaf etdirilməsi;
2.5.4. Yeni bazar imkanlarının və regional genişlənmə perspektivlərinin qiymətləndirilməsi;
2.5.5. Xarici bazarlarda fəaliyyət imkanlarının araşdırılması və strateji iştirakın genişləndirilməsi.

**2.6. İnnovasiya və davamlı inkişaf mədəniyyətinin formalaşdırılması:**

2.6.1. İnnovativ ideyaların təşviq olunması və tətbiqi üçün daxili mexanizmlərin yaradılması;
2.6.2. Əməkdaşların innovasiya təşəbbüslərinin dəstəklənməsi;
2.6.3. Yeni texnologiyaların və innovativ həllərin biznes proseslərinə inteqrasiyası;
2.6.4. Pilot layihələrin və innovativ təşəbbüslərin həyata keçirilməsi;
2.6.5. Dəyişən bazar şəraitinə çevik uyğunlaşmanı təmin edən innovasiya mühitinin formalaşdırılması;
2.6.6. ESG (ESİ - Ekoloji, Sosial və İdarəetmə) prinsiplərinin fəaliyyətə inteqrasiyası, sosial məsuliyyətin və korporativ idarəetmədə şəffaflığın gücləndirilməsi, dayanıqlı maliyyə təşəbbüslərində fəal iştirakın təmin edilməsi.

## 3. Cəmiyyətin strateji baxışı

3.1. Azərbaycanın kapital bazarında innovativ investisiya həlləri təqdim edən, yüksək etimad, peşəkarlıq və texnoloji üstünlükləri ilə seçilən aparıcı investisiya şirkətlərindən biri olmağı hədəfləyir.

3.2. Cəmiyyət yerli və beynəlxalq maliyyə bazarları arasında etibarlı körpü rolunu oynayaraq investorlar üçün geniş investisiya imkanları yaratmağı, maliyyə bazarlarının inkişafına töhfə verməyi və investisiya xidmətlərini cəmiyyət üçün daha əlçatan etməyi hədəfləyir.

3.3. Cəmiyyət Azərbaycanın maliyyə bazarına yeniliklər gətirərək, A-dan Z-yə investisiya həlləri təqdim edən etibarlı tərəfdaş kimi tanınır və "Adımız güvənimizdir" şüarı ilə bazarda qazandığı etibar əsasında müştəri bazasını ildən-ilə genişləndirməyi hədəfləyir.

3.4. Cəmiyyət investisiya mədəniyyətinin inkişafına, maliyyə savadlılığının artırılmasına və ölkənin kapital bazarının qlobal maliyyə sisteminə inteqrasiyasına töhfə verən nüfuzlu maliyyə institutu olmağı hədəfləyir.

3.5. Bu Strateji Baxış Cəmiyyətin uzunmüddətli inkişaf istiqamətlərinin, strateji prioritetlərinin və korporativ hədəflərinin müəyyənləşdirilməsi üçün əsas çərçivə rolunu oynayır.

## 4. Cəmiyyətin missiya bəyanatı (mission)

Xaricdə fəaliyyət göstərən qabaqcıl investisiya şirkətlərinin təcrübələrini yerli Cəmiyyətin missiyası maliyyə bazarlarını hər kəs üçün daha əlçatan və başadüşülən etmək, müştərilərinə təhlükəsiz, innovativ və müasir investisiya xidmətləri təqdim etməklə onların maliyyə məqsədlərinə nail olmasına dəstək göstərməkdir.

"Yatırım dünyasının qaydalarını yenidən formalaşdırırıq" prinsipi ilə fəaliyyət göstərən Cəmiyyət hər kəsin investor olma potensialını reallaşdırmasına şərait yaratmağı, investisiya imkanlarına çıxışı genişləndirməyi və maliyyə biliklərinin artırılmasını dəstəkləməyi öz missiyasının ayrılmaz hissəsi hesab edir.

4.1. Bu missiyanın həyata keçirilməsi məqsədilə Cəmiyyət:

4.1.1. müştəri yönümlülük, etibarlılıq, şəffaflıq və innovasiya prinsiplərini əsas fəaliyyət dəyərləri kimi qəbul edir;
4.1.2. müasir texnologiyalar, o cümlədən süni intellekt və rəqəmsal həllər vasitəsilə xidmət keyfiyyətinin davamlı artırılmasını təmin edir;
4.1.3. yerli və beynəlxalq qabaqcıl təcrübələri tətbiq edərək investisiya xidmətlərini inkişaf etdirir;
4.1.4. müştərilər qarşısında öhdəliklərin vaxtında və tam yerinə yetirilməsini təmin edir;
4.1.5. investisiya məhsulları və maliyyə alətlərinin çeşidini davamlı şəkildə genişləndirir;
4.1.6. maliyyə savadlılığının artırılması və investisiya mədəniyyətinin formalaşdırılması istiqamətində maarifləndirici fəaliyyətlər həyata keçirir;
4.1.7. əməkdaşların peşəkar inkişafını dəstəkləyir və yüksək korporativ idarəetmə standartlarını tətbiq edir;
4.1.8. regional və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı genişləndirərək qlobal investisiya imkanlarına çıxışı artırır;
4.1.9. məlumat əsaslı idarəetmə və analitik qərarvermə mexanizmlərini inkişaf etdirir;
4.1.10. korporativ sosial məsuliyyət prinsiplərinə uyğun olaraq təhsil, innovasiya və maliyyə savadlılığı sahələrində layihələri dəstəkləyir.

## 5. Yekun müddəalar

5.1. Bu Siyasət təsdiq edildiyi gündən qüvvəyə minir.

5.2. Bu Siyasətdə öz əksini tapmış Cəmiyyətin Strateji baxış və missiya bəyanatı Müşahidə Şurası tərəfindən ayrıca təsdiq edilir və həmin sənəd məlumat üçün Səhmdarların Ümumi Yığıncağına təqdim edilir.

5.3. Bu Siyasətə əlavə və dəyişikliklər yalnız Müşahidə Şurasının qərarı ilə edilə bilər.

5.4. Azərbaycan Respublikasının qanunvericiliyi, Cəmiyyətin Nizamnaməsi, Cəmiyyətin nəzarət və idarəetmə orqanlarının qəbul etdiyi daxili normativ sənədlər ilə bu Siyasətin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.

5.5. Azərbaycan Respublikasının qanunvericiliyinə dəyişiklik edilməsi nəticəsində bu Siyasətin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yaranarsa, həmin müddəa qüvvədən düşmüş hesab edilir.